**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# AZƏRBAYCAN VƏ ŞƏRQ MUSİQİ ALƏTLƏRİNİN DEKORATİV TƏRTİBATININ MÜQAYİSƏLİ TƏHLİLİ

İxtisas: 6218.01 – Dekorativ- tətbiqi sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı**:** **Emiliya Emilyevna Yanakiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Tamilla Şahbaba qızı Məmmədova** |
| Rəsmi opponentlər: | Xalq rəssamı, professor<br>**Siruz Yadulla oğlu Mirzəzadə**<br><br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Fəridə Altay qızı Mir-Bağırzadə**<br><br>sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Nəsibə Şəmayıl qızı Şükürova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | Xalq rəssamı, professor<br>**Fuad Məmməd Emin oğlu Salayev** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Xanım Zəlimxan qızı Əsgərova** |
| Elmi seminarın sədri: ______________ | Xalq rəssamı, professor<br>**Arif Möhübəli oğlu Əzizov** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan və Şərq xalqlarının maddi mədəniyyət nümunələri olan musiqi alətlərinin dekorativ tərtibat xüsusiyyətlərinin araşdırılması dekorativ-tətbiqi sənət sahələrində geniş istifadə edilən, hətta ornamentə çevrilən alətlərin dekorativ formalarının araşdırılmasını şərtləndirmişdir.

Bildiyimiz kimi Azərbaycan, eləcə də Şərq ornamentləri, bəzək xüsusiyyətləri, naxış kompozisiyaları ilə əlaqədar kifayət qədər elmi-tədqiqat işləri aparılmışdır. Dekorativ-tətbiqi sənətin hər hansı bir sahəsində olursa olsun ornamentlərin mənşəyi, məzmunu, forması, quruluşu təhlil edilərək öyrənilmişdir. Xalq mədəniyyətinin mühüm göstəricilərindən biri olan musiqi və həmin musiqiləri səsləndirən çalğı alətlərinin bədii tərtibat xüsusiyyətləri haqqında araşdırma, onların sadəcə funksionallığını deyil, eyni zamanda estetik cəhətlərinin formalaşmış və istifadəyə uyğun bədii tərtibat xüsusiyyətlərini də təhlillər əsasında müəyyənləşdirməyə imkan verir.

Əsrlər boyu ibtidai musiqi alətləri öz formasını dəyişir, tərəqqi edir, ilkin variantdan daha müasir formaya keçir və beləcə öz inkişaf xəttini təyin edir. Mövzu ilə bağlı araşdırmanın nəticəsi göstərir ki, tarix dəyişdikcə bir-biri ilə mədəni və maddi əlaqədə olan xalqların musiqi alətlərinin müqayisəli şəkildə öyrənilməsinin böyük əhəmiyyəti vardır. Əlbəttə ki, qeyd edilən xətt üzrə tarixi, ədəbi, etnoqrafik, arxeoloji və linqvistik qaynaqlardan istifadə mühüm rol oynayır. Bu mənada musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərinin öyrənilməsində hərtərəfli yanaşma problemin həllində məsələni daha geniş araşdırmağa şərait yaradır.

Azərbaycan xalq çalğı alətlərinin dekorativ tərtibat xüsusiyyətlərinin öyrənilməsinin əsas mənbələri klassik poeziya nümunələri, şifahi xalq yaradıcılığı, maddi-mədəniyyət nümunələri, kitab miniatürləri, rəssamların yaratdığı əsərlər və divar rəngkarlığı, muzey kolleksiyaları və tanınmış musiqiçilərə məxsus çalğı alətləri, tarixi salnamələr, səyyahların qeydləri,

musiqi ensiklopediyaları, izahlı və etimoloji lüğətlər və s. ibarətdir. Bu cəhətdən digər mənbələrlə muqayisədə Azərbaycan rəssamlarının miniatür rəngkarlıq nümunələrinin üstünlüyü şübhəsizdir. Çalğı alətlərinin muzey eksponatları isə əşya olaraq, müxtəlif istiqamətli tədqiqatlar aparılması üçün ən dəqiq mənbə sayıla bilər.

Milli ornamentallıq və forma xüsusiyyətləri ilə birləşərək meydana gələn kompozisiya bütövlüyü maddi mədəniyyətimizi əks etdirən bütün sahələrdə özünü göstərməkdədir. Lakin musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərində özünü göstərən bu naxış elementlərinə az sayda rast gəlinir. Əsasən özünün forması və funksional quruluşu ilə diqqət çəkən, xalqın milli dəyərlərini ifadə edən bu alətlər üzərində həndəsi, nəbati, hətta süjetli təsvirlərə rast gəlmək olar.

Azərbaycan incəsənətinin qədim ənənələrə bağlı olması, həm də onun musiqisinin də çox qədimlərə dayanan tarixi olduğundan xəbər verir. Bunu həm də müxtəlif bölgələr üzrə fərqli və ya oxşar cəhətləri ilə meydana çıxan musiqi alətləri təsdiqləyir. Dörd qrupa bölünən çalğı alətləri arasında nəfəsli musiqi alətlərinin bədii tərtibat xüsusiyyətləri onların bir qədər sonrakı, yəni X-XI əsrlərə aid olduğu dövrlər üzrə inkişaf etdiyini göstərir. Lakin bir çox arxeoloji qazıntılar nəfəsli alətlərin də Şərq xalqları arasında qədim tarixə malik olduğunu təsdiqləyir. Məsələn, qədim yaşayış məskənlərindən hesab edilən Mingəçevirdə aparılmış qazıntılar zamanı aşkarlanmış dörd ədəd maral buynuzundan olan zurnaların yaşının üç min ildən artıq olduğu iddiası irəli sürülmüşdür. Həmin zurna nümunələri yüksək zövqlə hazırlanaraq üzərində fərqli ornamentasiya həlli ilə diqqəti çəkir. Bu nöqteyi-nəzərdən müasir sənətşünaslığın qarşısında Azərbaycan və Şərq musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərinin tədqiqi və təhlili, bu sahədə çalışan rəssamların yaradıcılıqlarındakı oxşarlıq və fərdi xüsusiyyətlərin araşdırılması ilə əlaqədar əldə olunmuş material həm tarixi, həm də yaradıcılıq müxtəlifliyinin konkret bədii-stilistik aspektdə nəzərdən keçirmək kimi aktual məsələlər durur.

Azərbaycan və Şərq musiqi alətlərinin çox-çox uzaqlara

gedib çıxan tarixinə diqqət yetirildikdə onun dövrlər və bölgələr üzrə tərtib xüsusiyyətlərinin çox zaman ənənəviliyi qoruyub saxlaması, bəzən isə yeni üslubda meydana çıxması ilə müşahidə edildiyini görərik. Bunun musiqişünaslarla yanaşı, həm də ağacyonma, metalişləmə və digər bu kimi sahələrdə çalışan rəssamların yüksək estetik duyumu, zərif zövqü ilə bağlı olması birmənalıdır.

Ümumiyyətlə, günümüzədək Azərbaycan musiqi alətləri ilə bağlı aparılan araşdırmalar əsasən "Hornbostel-Sachs" adı ilə tanınan sistem üzrə araşdırılmışdır. Daha çox orqanologiya elm sahəsinə aid olan bu təsnifat metodu musiqi alətlərini tipinə və səs çıxarma mexanizminə görə onları qruplaşdırmaq məqsədi daşıyaraq musiqişünaslara, bu istiqamətdə fəaliyyət göstərən tədqiqatçılara, musiqi alətləri üzərində çalışan sənətkarlara, rəssamlara müxtəlif xalqların mədəniyyətində yer alan nümunələri dərk etmək və müqayisə etmək imkanı yaradır. Lakin həmin alətlərin sırf dekorativ-tərtibatının araşdırılması və bu təhlillərin daha geniş aspektdə tədqiqi məqsədilə müqayisəli təhlilə cəlb edilməsi dövrümüzə qədər heç bir dissertasiya mövzusu olaraq tədqiqata cəlb edilməmişdir. Bu mənada dekorativ-tərtibat xüsusiyyətlərinin musiqi alətləri üzərindəki tədqiqi ilə bağlı bu qədər geniş miqyasda, Şərq xalqları ilə müqayisəli şəkildə tədqiqinin günümüzədək aparılmaması faktı elmi işin aktuallığını şərtləndirir.

Beləliklə, Azərbaycan və Şərq musiqi alətlərinin bədii dekorativ tərtibat xüsusiyyətlərinin araşdırılması üzərində apardığımız tədqiqat işinin ümumi nəticələrindən belə qənaətə gəlmək olur ki, bu sahə xalqımızın maddi-mənəvi mədəniyyətinin xəzinəsinə daxil olan tarixi dəyərlərdəndir. Bununla da, həmin nümunələrin bədii tərtibatı sahəsindəki işin özünəməxsus tarixi inkişaf ənənələri meydana çıxır. Bu, xüsusilə, ictimai-tarixi dövrün bədii-estetik ənənələri, sənətkarlıq məsələləri ilə sıx bağlı olmuşdu.

Qeyd edək ki, dissertasiyanın mövzusu Azərbaycan sənətşünaslığında ayrıca və əhatəli tədqiqata cəlb olunmamışdır. Ayrıca musiqi alətləri, onların yaranma və inkişaf tarixi, eləcə də

funksional xüsusiyyətləri, musiqişünaslıq elmi ilə əlaqədar olan məsələlərlə bağlı kifayət qədər məlumata rast gəlmək mümkündür. Məsələn, bunlardan Musiqi Akademiyasının dosenti Məcnun Kərimovun 2009-cu ildə nəşr olunmuş "Azərbaycan musiqi alətləri" adlı kitabını misal göstərmək olar ki, burada Azərbaycan musiqi alətlərinin əsas nümunələri yer alaraq, onlar haqqından konkret məlumatlar verilmişdir. Və yaxud musiqişünas alim, sənətşünaslıq doktoru, professor Səadət Abdullayevanın 2002-ci ildə "Adiloğlu" nəşriyyatında çap edilmiş "Azərbaycan xalq çalğı alətləri" adlı 454 səhifəlik musiqişünaslıq-orqanoloji tədqiqat işini, 2007-ci ildə "Şərq-Qərb" nəşriyyatında üç cilddə nəşr edilmiş "Azərbaycan etnoqrafiyası" adlı kitabı, eləcə də ayrı-ayrı musiqi alətləri ilə bağlı kiçik həcmli nəşrləri, məqalələri göstərmək olar. Burada eyni zamanda Azərbaycan ornamentləri ilə bağlı yazılmış müxtəlif informativ məlumatları, tədqiqat işlərini də göstərmək olar ki, bunların hər biri ayrı-ayrılıqda dəyərli elmi işlər, informasiya mənbələri kimi diqqəti cəlb edir. Lakin musiqi alətlərinin məhz dekorativ-tərtibatının araşdırılması istiqamətində günümüzədək monoqrafik səviyyədə tədqiqat aparılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyektini Azərbaycan və Şərq xalqlarının müxtəlif dövrlərdə yaradılmış musiqi əsərlərinin bədii tərtibat xüsusiyyətləri üzərində aparılan araşdırma təşkil edir. Tədqiqatın obyektinin böyük qismini ölkələr və fərqli bölgələr üzrə verilmiş müxtəlif nümunələrin bədii təhlili təşkil edir.

Musiqi alətlərinin muzey eksponatlarında qorunan nümunələri ilə yanaşı, Azərbaycan və Şərq miniatür sənəti, divar rəngkarlığı, şəxsi kolleksiyalarda qorunan materiallar tədqiqat obyekti bazasını xeyli genişləndirmişlər.

Tədqiqatın predmeti kimi qədim zamanlardan günümüzədək Azərbaycan və Şərq xalqlarına məxsus musiqi alətlərinin dekorativ tərtibat xüsusiyyətlərinin müəyyənləşdirilməsidir.

Dissertasiya işində fərqli musiqi alətləri üzərində yeni, fərqli ornament xüsusiyyətləri araşdırılıb və konkret nəzəri

müddəalarla təsbit edilmişdir.

Bu istiqamtdə olan səciyyəvi və fərqli xüsusiyyətlərin araşdırılması, eləcə də onların milli xarakterik, ornamental xüsusiyyətlərinin araşdırılması tədqiqat predmetinin qayəsini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan və Şərq musiqi alətlərinin müxtəlif növləri tədqiqata cəlb edilərək təhlil edilmiş, həmin nümunələrin özünəməxsusluğunu, dekorativ xüsusiyyətlərini, ornament üslubunu, eləcə də istifadə edilən material xüsusiyyətlərini müəyyən etməkdir. Musiqi əsərləri üzrə aparılan araşdırmanın Azərbaycan dekorativ-tətbiqi sənət kontekstində təhlil edilməsi tədqiqatın məqsəd və vəzifələri kimi çıxış edir. Başlıca məqsəd həm də bu sahədə gedən inkişafa müasir dövrün prizmasından yanaşmaqdır.

Azərbaycan və Şərq musiqi alətlərinin dekorativ tərtibatının müqayisəli təhlilinin araşdırılması aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

1. Qədim və müasir Azərbaycan musiqi alətlərinin forma quruluşlarında ənənəviliyin müyyənləşdirilməsi;
2. Azərbaycan musiqi alətlərinin bədii tərtibatında kompozisiya xüsusiyyətlərinin araşdırılması;
3. Türkdilli xalqların musiqi alətlərinin bədii tərtibatında ümumilik və özünəməxsusluğun müəyyənləşdirilməsi;
4. Azərbaycan və digər Şərq ölkələrinin musiqi alətlərinin dekorativ tərtibatında bədii xüsusiyyətlərin araşdırılması.
5. Bölgələr üzrə müxtəlif nümunələr əsasında əsas səciyyəvi xüsusiyyətlərin müəyyənləşdirilməsi məqsədilə fərqli musiqi alətlərinin dekorativ xüsusiyyətləri üzrə təhlillərin aparılması.

**Tədqiqat metodları.** Metodoloji əsaslar kimi

- tarixi-mədəni və tarixi-bədii yanaşma üsuluna üstünlük verilib;
- dissertasiya üzərində iş zamanı bizim tərəfimizdən tədqiqatda kompleksli metoddan istifadə edilmisdir, yəni əyani material əhatəli şəkildə təhlil olunmuşdur;
- əsas nümunələrin dekorativ tərtibat xüsusiyyətləri təhlil

edilmiş, imkan daxilində sahələr üzrə verilən nümunələrə əsaslanaraq əsas xüsusiyyətlər müəyyəlşdirilmişdir;

- əlavə olaraq, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Azərbaycan və Şərq musiqi alətlərinin dekorativ tərtibatının müqayisəli təhlilinin tədqiqat obyekti olaraq seçilməsi aşağıdakı müddəalardan qaynaqlanır:

1. Azərbaycan və Şərq musiqi alətlərinin Azərbaycan dekorativ-tətbiqi sənətində yerini və rolunu müəyyən edən, onların bir yaradıcılıq nümunəsi olaraq meydana çıxmasını şərtləndirən tarixi-müqayisəli təhlilin aparılması;
2. Musiqi alətlərinin bədii mahiyyətini və məzmununu təhlil etmək imkanı verən ikonoloji şərhin aparılması;
3. Musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərini, onların ornament kompozisiyalarını, eləcə də forma xüsusiyyətlərini müəyyən etməyə imkan verən formal stilistikanın müəyyənləşdirilməsi;
4. Azərbaycan və Şərq xalqlarına məxsus musiqi alətlərinin növlər üzrə tipoloji xüsusiyyətlərinə görə təhlil və sistemləşdirilməsinə imkan verən həmin nümunələrin tərtibat xüsusiyyətləri ilə yanaşı, arxa planda dayanan mədəni, sosial və tarixi əhəmiyyəti dərk etmək üçün təsvir olunan mövzunun kontekstinin müəyyənləşdirilməsi;
5. Mövzu üzrə tədqiqata cəlb edilən nümunələrin hər biri təhlil edilməsi, bu istiqamətdə olan elmi məqalə və araşdırmalar ümumiləşdirilərək şərh edilməsi, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyatın öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə ondan ibarətdir ki, elmi araşdırmalar zamanı Azərbaycan və Şərq musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərinin indiyə qədər tədqiq olunmamış fərqli nümunələri araşdırılaraq təhlil olunmuşdur.

Elmi işdə əsasən Azərbaycan musiqisinə daxil olan simli, nəfəsli və zərb musiqi alətləri əhatəli şəkildə araşdırılmış, müxtəlif muzeylərdə, şəxsi fondlarda qorunan əsərlərin siyahısı

hazırlanmışdır.

Müxtəlif nümunələr ayrı-ayrı bölgələr üzrə bölünərək onların inkişaf istiqamətləri və əsas tərtibat xüsusiyyətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırkı tədqiqat Azərbaycan dekorativ tətbiqi sənət tarixini genişləndirərək dekorativ sənətin, eləcə də ornament kompozisiyalarının ümumi inkişafında Azərbaycan və Şərq ölkələrinə məxsus çalğı alətlərinin rolunu, yerini və əsas xüsusiyyətlərini müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan dekorativ sənətinin zənginliyini, növ və janr müxtəlifliyi diapazonunu genişləndirmiş olur.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə "Azərbaycan dekorativ sənəti tarixi" mövzusunda xüsusi kurslar çərçivəsində tədris oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 10 (on) məqalədə və konfranslardakı çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya işi giriş, iki fəsil, dörd paraqrafdan, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və şəkillər albomundan ibarətdir. O cümlədən: Giriş – 12.003, I Fəsil – 98.140, II Fəsil – 101030, Nəticə – 13.472, ədəbiyyat siyahısı istisna olunmaqla işin ümumi həcmi – 224.645 işarə sayından ibarətdir.

# İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Girişdə mövzunun aktuallığı və işlənmə səviyyəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, eləcə də işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir. Dissertasiya iki fəsil və dörd paraqraf üzrə tədqiq edilmişdir.

Dissertasiyanın **"Azərbaycan musiqi alətlərinin bədii tərtibat xüsusiyyətləri"** adlı birinci fəslinin ilk paraqrafı **"Qədim və müasir Azərbaycan musiqi alətlərinin forma quruluşlarında ənənəvilik"** mövzusuna həsr edilmişdir. Azərbaycan musiqi alətlərinin dekorativ tərtibatı haqqında araşdırma hər şeydən əvvəl həmin alətlərin istifadə sahələri, onların az və ya çox şəkildə tarixi haqqında məlumatın əldə edilməsini də şərtləndirir. Burada hər şeydən əvvəl muğam üçlüyündə iştirak edən Azərbaycanın əsas musiqi alətləri haqqında məlumat maraq doğurur.

Azərbaycan xalqı qədim zamanlardan başlayaraq müasir dövrümüzədək muğam kimi möhtəşəm sənətin ənənələrini yaşadaraq qoruyur. Azərbaycan muğamının bədii dəyəri hətta dünya mədəniyyəti səviyyəsinə qədər ucaldılaraq öz yüksək qiymətini almışdır. Təsadüfi deyil ki, muğam YUNESKO tərəfindən "bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri" kimi dəyərləndirilmişdir. "*Bir sıra ümumi, bədii cizgiləri Azərbaycan muğamını İran dəstgahları, özbək-tacik şaşmakomları, uyğur mukamları, hind raqaları, ərəb nubaları, türk təqsimləri ilə qohumlaşdırır və bütün bunlar Şərq musiqisinin ümumi-bədii ənənələrini təşkil edirlər. Bununla yanaşı, muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır*".[1]

Bir çox musiqi alətinin zamanla səhnədən çıxmağa

---

[1] [Elektron resurs] / URL https://unikal.az/news/158947- "Muğam - Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biridir".

başlaması, yerini digər alətlərlə əvəz etməsi ilə bağlı çoxsaylı faktlar mövcuddur ki, bunlardan biri də çəqanədir. Çəqanə XIX əsrin sonlarına kimi Azərbaycan musiqisində istifadə olunan bir alətdir. Onun dekorativ tərtibatı öz sadəliyində saz və kamançanı sanki birləşdirən forması ilə yanaşı, sanki taxta fakturanın da tünd və açıq dəyərlərinin sintezində həyata keçirilməsi ilə maraqoyadır. Belə nümunlərdən birində tünd rəngli sapının və arxa hissənin əksinə olaraq üz səthin parlaq ağac fakturanın açıq rəngində yerinə yetirilməsi ilə qazanılmış estetikliyi təqdim etməsi nəzəri cəlb edir.

Qədim musiqi alətlərinin dekorativ-bədii xüsusiyyətləri haqqında tarixi mənbələr üzrə araşdırma həmin alətlərin bu günədək qalmış çox az sayda nümunələri ilə deyil, əsasən orta əsr yazılı mənbələri və təsviri sənətin müxtəlif sahələrində tərənnüm edilmiş alətlərin forma və dekorativliyi haqqında əsaslı məlumatlarda saxlanmaqdadır. Bu mənada daha çox Şərq miniatürlərində musiqi məclisləri və yaxud ayrı-ayrı musiqiçinin tək halda, qrup halda ifalarını tərənnüm edən belə əsərlərin dəyəri əvəzsizdir. Ümumiyyətlə, qədim musiqi alətlərinin dekorativ forması üzərində tədqiqat işinin böyük qismi əsasən miniatürlər üzərindəki araşdırma ilə həyata keçirilir. Nümunələr olaraq bir neçə əsər üzərində təhlillərin aparılması mövzuya aydınlıq gətirəcək.

XVI əsrə aid "Xəmsə"yə edilmiş, dahi Nizami Gəncəvinin şahın qəbulunda olan səhnəsini tərənnüm edən miniatürdə ziyafət məclisi səhnəsi parlaq, optimist ruhlu çalarlarla əks edilmişdir. Əsərin mövzu açıqlanmasını, onun dinamikasını isə obraz və digər detallarla bərabər daha çox cəlb edən bir musiqi alətinin bədii əksi ifadə edir. Müxtəlif dekorativ elementlər, məişət detalları, qədim dolçalar, kuzələr, xalçalar özlüyündə bu dövrün maddi mədəniyyət nümunələrinin xarakterikliyini ifadə edir. Lakin əsərin maraq doğuran əsas hissəsi və tədqiqatın obyekti kimi çıxış edən detal musiqi alətinin tərənnümüdür. Bütün bunlar həmin alətin incə məqamlarının əsasları haqqında məlumat verir. Tablonun sol aşağı hissəsində əlində saz çalan musiqiçinin təsviri maraq doğurur. Onun ifa etdiyi alət müasir sazla fərqli üsluba

malikdir. Bu fərqlilik sazın sapının uzun olmasıdır. Qara rəngli səthin çanaq hissədə ağ zolaq keçidi ilə verilməsi onun estetikliyini ifadə edir. Sazın üzərində incə sarı bəzək elementləri həndəsi stildə sazın həm ciddi, həm də zövqlə işləndiyini təsdiq etməkdədir. Əsərdə əsasən qırmızı, sarı, qızılı, ağ, açıq qəhvəyi tonların arasında özünün fərqli çaları verilmiş musiqi aləti həmin andaca diqqəti cəlb edir.

Əslində Nizami Gəncəvinin yaşadığı dövrlərdə indiki sazın yerini ozan qopuzu sayılan çoğur tuturdu. XV-XVI əsrlərdə çoğur öz yerini sazla əvəz etdi. Qeyd edilən əsərdə rəssam indiki sazın klassik formasını, dövrə uyğun əsas quruluşunu canlandırmışdır.

Azərbaycan və Şərq musiqi alətlərinin forma quruluşları üzərində aparılan araşdırma onların hər zaman qədim ənənələr üzərində inkişaf etdirildiyini təsdiqləyir. Fərqli materiallardan hazırlanan musiqi alətləri ağac oyma, metal və saxsı sənəti kimi Azərbaycan dekorativ-tətbiqi sənət sahələrinin inkişafında da müəyyən qədər rol oynamış, bu istiqamətdə fərdi rəssam səriştəsini dəyərləndirməyə imkan yaratmışdır.

Birinci fəslin ikinci paraqrafı milli ornamentallıq və forma xüsusiyyətləri ilə birləşərək meydana gələn kompozisiya bütövlüyü maddi mədəniyyətimizi əks etdirən bütün sahələrdə özünü göstərməkdədir. Lakin musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərində özünü göstərən bu naxış elementlərinə az sayda rast gəlinir. Əsasən özünün forması və funksional quruluşu ilə diqqət çəkən, xalqın milli dəyərlərini ifadə edən bu alətlər üzərində həndəsi, nəbati, hətta süjetli təsvirlərə rast gəlmək olar. Musiqi alətlərinin qədim nümunələri ilə bağlı məlumatları daha çox orta əsr mənbələrində əldə etmək mümkündür. Məsələn, udun formaca estetik şəkildə həyata keçirilməsi ilə bağlı Səadət Abdullayeva bu haqda belə qeyd etmişdir: "Nizami Gəncəvinin yaradıcılığına istinad etsək, orta əsrlərdə ən mükəmməl udlar Səmərqənd yaxınlığında yerləşən qədim Soğdi şəhərində düzəldilirdi".[2]

Müasir dövrümüzdə belə sənətkarlar tərəfindən həyata

[2] Abdullayeva S. Nizami Gəncəvinin əsərləri Orta əsr çalğı alətləri haqqında əsas mənbə kimi. // - Bakı: Konservatoriya, № 1, 2018, s.71.

keçirilən musiqi alətlərinin forması həm onların qədim kökə bağlılığını qoruyub saxlayır, həm də üzərində yeni ornamental bəzəklərlə zənginləşdirməyə xidmət edirlər. Bunlardan 1978-ci ildə həyata keçirilmiş sənturun (müəllif: M.Kərimov) forması diqqəti cəlb edir. Müxtəlif formada olan sənturlar bir-birlərindən əsasən üzərindəki naxışlama ilə fərqlənirlər. Qeyd edilən alətin ön hissəsində verilmiş ornamental kompozisiya altıbucaqların yan-yana düzülüşü ilə həll edilmişdir. Bu altıbucaqlıların özünün də altı dəfə təkrarlanması əsərin bədii ifadəliyini yüksəltmişdir. Alətin ön səthinin bir qədər dar sahə olmasına baxmayaraq rəssamın burada boşluq buraxmadan onu həll etməyə çalışması alətin maraqla qarşılanmasına səbəb olmuşdur. Bu elementin qara rəng dəyəri ilə təsviri alətin simli olan səth hissəsində də verilmişdir. Kiçik bir detalın alətə bəxş etdiyi təsir əslində kiçik bir dinamizmin təsiri ilə maraq oyadır. Simlərin yanlara doğru uzanaraq çıxıntılarla verilməsi də eyni məqsəddən çıxış edir. Simlər sağdan bərkidilərək solan doğru sanki alətin yan tərəfindən eyni ölçülərdə çıxarılmaqla saçaq kimi dekorativ-tətbiqi sənət əsəri səviyyəsində təqdim edilir.

Məsələn, eyni müəllifin 1979-cu ildə həyata keçirdiyi digər bir səntura diqqət etdikdə onun eyni formada olan quruluşuna baxmayaraq, üzərindəki naxışlama alətlər arasındakı müxtəliflik fərqi izah edir. İkinci musiqi alətində rəssam quş və nəbati detalları bir yerə gətirərək mürəkkəb kompozisiya quruluşu yaratmışdır. Hər iki alətin naxışlanması haqqında onu qeyd etmək olar rəssam burada sadəcə bəzəklərin yaradılması ilə kifayətlənməmiş, onların mənalı təsir bağışlaması üçün də cəhd göstərmişdir. Ön hissədə verilmiş təsvir ağac oyma üsulu ilə həyata keçirilmişdir. Mərkəzdən genişlənərək sanki ətrafa yayılan naxış kompozisiyası güzgü simmetriyası əsasında həll edilmişdir. Bu məqsədlə sənturun sağ və sol hissələri də digər alətlə müqayisə eyni şəkildə verilməsi ilə fərqli dekorativ tərtibatları meydana çıxardır. Musiqi alətinin mərkəzində verilmiş xonça tipli elementin daxilində yer alan səkkizguşəli ulduz təsviri nəbati və həndəsi ornamental xüsusiyyətlərin təsirlərini bir alət üzərində birləşdirərək dolğun kompozisiya

quruluşu ilə zövq oxşayır. Kənar hissələrin də bir qədər açıq tonlu əsas hissəyə görə ağac fakturasının daha tünd dəyərindən istifadə edilməsi eyni məqsədə xidmət edir.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunan XX əsrin əvvəllərinə aid edilmiş sədəflə işlənmiş tarın görünüşü xüsusi zövqün ifadəsi kimi özünü göstərməkdədir. Qeyd edilən nümunədə həndəsi elementlər nəbati detallarla bərabər verilmişdir. Tarın kiçik çanağında həndəsiləşdirilmiş nəbati elementlərin istifadəsi yarımdairə kimi yuxarıya doğru həlli diqqət çəkir. Onun sadə haşiyə zolağının daxilində kiçik açıq üçbucaqlar yerləşdirilmişdir ki, bunlar da bir qədər kiçik ləçəkləri xatırladır. Mərkəzdə verilmiş iri ulduzun daxilində də nöqtəli ifadələr onu daha da zənginləşdirmişdir. Çanağın birinci hissəsində iki tərəfə açılan iri gül təsvirinin real formada canlandırlması onun daha zəngin tərtibatda verilməsi məqsədi daşıyır. Sanki dibçəkdə təsvir edilən güllər şaxələnərək kənarlara doğru yayılır. Burada rəssam incə zövqlə yanaş, sədəf materialın incəliklərindən də uğurla yararlanmağı bacarmışdır. Çanağın kənar hissəsində verilən romblar isə sadə formada aşağı və yuxarı qisimdə uğurlu bir şəkildə birləşərək əsas olan təsvirin alət üzərində daha aydın görünməsinə imkan yaradır. Qeyd edək ki, əsas olaraq qeyd edilən musiqi alətinin haşiyəsində verilmiş gözəl, zövqlü sədəfli işləmənin həndəsi ornamentlərlə yerinə yetirilməsidir ki, rəssam burada onun dekorativ həllində yüksək məharət nümayiş etdirmişdir. Burada iki zolaqda verilmiş ulduzlar öz oxu üzərində bölünərək sanki bütün naxışların sistemli düzülüşünə imkan yaradır. Tarın sap hissəsində rəssam ornamental naxış elementlərini də sədəflə yerinə yetirmişdir. Burada düz oxvari uzunsov detalın üzərində də həmin ulduz elementinin istifadəsi onun bədii dekorativ həllini əhəmiyyətli şəkildə estetik etmişdir.

Ümumiyyətlə, ağac oyma sənətinin musiqi alətlərinin dekorativ tərtibatındakı istifadəsi hər zaman uğurlu nümunələrin meydana çıxması ilə nəticələnmişdir. Bunlardan bir neçəsi üzərində aparılan təhlil qeyd olunanları təsdiq edir. Məsələn, ağac və sümükdən hazırlanmış Z.Hacıbəyova məxsus

kamançanın üzərində tağvari elementlər alətin açıq hissəsinin bütün kənarları boyu onu əhatələyərək haşiyə naxışını meydana gətirir. Bu cür təsviri xalça nümunələrində sıx rast gəlmək mümkündür. Haşiyə zolaqları bir-birinin ardınca fərqli həndəsi elementlərin sıralanmsı ilə həll edilmişdir. Onlar hər nə qədər sadə formada olsalar da sıxlıq, aralıqlar boşluqların buraxılması alətin zəngin tərtibatını meydana çıxartmış olur. Bu zənginliyi bəsitləşdirməmək üçün rəssam sapın üzərində sadəcə iri cərgələrlə verilmiş xətti ifadələrdən istifadə etməyi məqsədəuyğun hesab etmişdir. Lakin onun tünd yerlik üzərində açıq rəng dəyərində həll edilməsi yenə də diqqəti cəlb edəcək şəkild zənginliyi meydana çıxartmağa davam edir. Sapın üst hissəsi və başlığında isə çanaqda istifadə edilmiş elementlərin uğurlu istifadəsi ornament kompozisiyasının zövqlə həyata keçirildiyini göstərir.

Qarabağ bölgəsinə aid ağac üzərində naxışlarının sədəflə həyata keçirildiyi kamança eyni zamanda rəng dəyərlərinin uğurlu istifadəsi ilə özünəməxsus dekorativ tərtibatı meydana çıxarmışdır. Musiqi aləti qırmızıya çalan tünd ağac rənginin üzərində parlaq sarı rəngli sədəfin bəxş etdiyi zərif tərtibatla diqqəti cəlb edir. Ara sahələrdə sanki cərgələr yaradan haşiyələr tərs dayanan üçbucaqların sistemli sıralanması ilə həyata keçirilmişdir. Xüsusi olaraq oval şəklində verilmiş bu hissədə stilizə edilmiş yarpaq və çiçək elementlərinin sadə formasına üstünlük verilmişdir. Kənar haşiyələrdə isə rombvarı detalların yeni də ümumiyə tabe edilmiş sadəliyi diqqət çəkir. Haşiyə iki sırada eynilə təkrarlanmaqla, sadə elementin doğru həlli ilə bəxş edilmiş zənginliyi göstərir. Sapın formasında rəssam sadə rombların düzülüşündən istifadə etməklə zərif ornamental kompozisiyaya müəlliflik etmişdir. Qulpların da rəngində sarı çalarların istifadəsi bu zərifliyi artırmaqla onun həm də dolğun tərtibata malik olduğunu göstərir. Rəssam burada sədəfi qızıl parlaqlığında verməklə olduqca xoş və fərqli təəssürat yaratmağa nail olmuşdur.

Görkəmli sənətkar K.Əhmədovun “Xətəmkar” üslubunda bəzədilmiş musiqi alətləri böyük maraq doğurur. Burada fərqli

alətlərin müxtəlif formaları yer alır. Xətəmkarlıq üslub minaçılıq, şəbəkə, döymə kimi texnikalar sırasında yer alan bir üsuldur. Əsasən kənar haşiyələrdə, alətin sap qisimlərində yer alan naxışlar sədəf materiallardan hazırlanırdı. Rəssam həndəsi ornament xüsusiyyətlərin daha üstünlük verdiyi üçün onun əsərlərində sadəlik, ciddiyyətlə yanaşı, zərifliyin, incəliyin də ön plana çıxdığının şahidi oluruq. Məsələn, verilmiş tar nümunlərindən birində çanağın ya haşiyələrində iri planda robların bir neçə cərgədə sıralanması və yaxud qaval çanağının haşiyəsində sadə dördbucaqlı elementlərin verilməsini qeyd edə bilərik. Rəssamın həyata keçirdiyi saz nümunələrinin birində onun səthdə verdiyi sadə düzbucaqlıların bütün sahə boyu dövrələnərək sapın üzərinə doğru hərəkət edərək sona qədər davam etməsi alətin dinamik naxış kompozisiyası ilə diqqət çəkməsini təmin etmişdir. Və yaxud kamançanın yenə də çanaq hissəsinin haşiyəsində verilən sadə rombların alt və yuxarı qisimlərdə həll edilərək sistemli düzülüşü onun şux bədii tərtibatında xəbər verir.

Dekorativ-tətbiqi sənətin müxtəlif sahələrində istifadə olunan milli musiqi alətlərinin istifadəsinə nəzər saldıqda onların özünün də bu sahədə ayrıca olaraq dekorativ formalarının araşdırılmasının vacibliyi danılmazdır.

Əsrlərlə öz formasını, quruluşunu, funksional dəyərlərini dəyişən musiqi alətlərimizin üzərindəki bəzək elementləri digər naxışlarla yanaşı həndəsi formalı bəzəklərin də milli köklərə bağlılığını əks etdirməkdədir.

Dissertasiyanın "Şərq musiqi alətlərinin bədii tərtibatının müqayisəli təhlili" adlı ikinci fəslinin ilk paraqrafı "Türkdilli xalqların musiqi alətlərinin bədii tərtibatında ümumilik və özünəməxsusluq" adlanır. İnsanın mənəvi aləminin formalaşmasında, ruhunun qidasına çevrilən musiqi demək olar ki, bəşər tarixində əsaslı yerə sahibdir. Bu mənada əsrlər boyu yeni melodiyalar, musiqi janrları yaradılır və nəticə olaraq ibtidai musiqi alətləri öz formasını dəyişir, tərəqqi edir, ilkin variantdan daha müasir formaya keçir və beləcə öz inkişaf xəttini təyin edir. Mövzu ilə bağlı araşdırmanın nəticəsi göstərir ki, tarix

dəyişdikcə bir-biri ilə mədəni və maddi əlaqədə olan xalqların musiqi alətlərinin müqayisəli şəkildə öyrənilməsinin böyük əhəmiyyəti vardır. Əlbəttə ki, qeyd edilən xətt üzrə tarixi, ədəbi, etnoqrafik, arxeoloji və linqvistik qaynaqlardan istifadə mühüm rol oynayır. Bu mənada musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərinin öyrənilməsində hərtərəfli yanaşma problemin həllində məsələni daha geniş araşdırmağa şərait yaradır.

Türk dünyasının ən qədim alətlərindən olan adı “Kitabi – Dədə Qorqud” dastanında keçən qopuzun çox uzun bir tarixi vardır. Türk dünyasının ortaq musiqi aləti olan qopuzun dekorativ formasına diqqət yetirdiyimizdə ortaq xüsusiyyətlər qədər fərqli formaların da mövcud olması maraq oyadır. Misal olaraq, 2010-cu ildə Qırğızıstanın paytaxtı Bişkekdə konsertlərin birində ifa edən musiqiçinin istifadə etdiyi qopuzla müasir türk qopuzunu müqayisə edərkən onların olduqca fərqli formalara malik olduqlarını görürük. Qırğızıstana məxsus qopuzun çanaq hissəsi armuda bənzər quruluşda olduğu halda, digər qopuzun çanağının tam dairəvi formada olması onlar arasındakı əsaslı fərqi göstərir. Buradakı qopuzlardan biri mizrabla, digəri isə yayla səsləndirilir. Lakin qopuzların heç birində dekorativ elementlərin istifadəsinə rast gəlinmir. Azərbaycan qopuzunda isə sanki çanaqla, sap hissə bir-birindən ayrılmadan tam olaraq əl ilə oyularaq ağac fakturasının qorunması ilə özünün klassik formasına sadiqliyini nümayiş etdirir. Daha əski qopuzların günümüzə gəlib çatan bir çox fotoları onların daha naxışlarla, Şərq ornamentlərindən istifadə ilə daha zəngin formada həyata keçirildiyini də qeyd etməyə əsas verir. Ağacdan hazırlanmış bu qopuzlar əsasən Altay türklərinin musiqi mədəniyyətinə daxil olan bu qopuzlar daha çox kamançanı da xatırladır. Üzərində altı şüalı ulduz, fərqli süjetli təsvirlərin də olduğu güman edilən həmin qopuzlar formaca fərqli quruluşlara malik olurdular. Əsasən Şimal-Şərqi Asya xalqlarına məxsus olan qopuzların çanaq hissəsi bir çox hallarda düz formalarda da həyata keçirilirdi. Xakas türklərinin xalq musiqisində istifadə edilən qopuzun quruluşca kamançaya olduqca yaxın olması diqqəti cəlb edir. Qeyd edilən bu musiqi alətinin düz, bir qədər çanaqla

birləşən forması qədim kamança nümunələrini də xatırladır.

Türk musiqi alətləri haqqında yuxarıda verilmiş məlumatlar sayəsində türk xalqlarında simli, nəfəsli və zərb alətlərinin nə üçün zəngin çeşidləri olduğunu anlaya bilərik. Türk coğrafiyasında inkişaf etdirilən, coğrafi və sosial həyat şəraitinə uyğun çalğı alətlərində və melodiyaların varlığında dünyada heç bir xalqda olmayan bənzərsiz zənginlik yaratmışdır. Digər tərəfdən, bütün fərqliliklərinə və çox böyük bir coğrafiyaya yayılmasına baxmayaraq, türk musiqi alətlərinin ortaq cəhətləri dəyişməmişdir. Simli, nəfəsli və zərb alətləri əsasən öz əsas funksiyalarını və fiziki xüsusiyyətlərini qoruyub saxlamışdır. Deyə bilərik ki, Anadoluda saz, Qazaxıstanda dombra, Balkanlarda zurna, uyğurda surnay, Azərbaycanda tar, Pakistanda rebab hələ də eyni ruhda musiqi ifa edir. Çox güman ki, növbəti min il ərzində bunu davam etdirəcək. Burada onların dekorativliyi haqqında da eyni fikirləri qeyd etmək mümkündür.

Kıl kiyağ türklərin istifadə etdiyi ən qədim musiqi alətlərindən biridir. Azərbaycan türkcəsində tük kimi tanınan bu alətin adı Altay türkcəsində ıklık, ıklığ, İkili, qazax türkcəsində kil kobız, xakas türkcəsində ııẖ, tuva türkcəsində igil, türkmən və uyğur türkcəsində gıcak, gicek, Özbəkistan, Azərbaycan və Türkiyədə türk, fars mənşəli kemençe kamança kimi ifadə edilir.

Kil kiyağın türk xalqları arasında istifadə etdikləri adlar kimi gövdə hissəsinin və sapının uzunluğunda da fərqlənə bilər. Türklərin qədim zamanlardan günümüzədək məharətlə istifadə etdikləri silahlardan biri olan ox və yay, əsrlər boyu onların həyatının bir parçası olmuş, kimlikləri və mədəniyyətləri ilə bütünləşmişdir. Ox səsindən təsirlənərək yaratdıqları bu musiqi alətinə “oxla çalınan” mənasını verən “ıklık” adını vermişlər. Sonralar farsca kaman mənasını verən kəlimə sözünü müxtəlif səbəblərdən dil zənginliyinə daxil etmişlər. Bu gün Anadoluda kəmənçə kimi ifadələr geniş istifadə olunsa da, ıklıq sözünə Övliya Çələbinin səyahət kitabında rast gəlinməsi və ıklıkçı adlı bəzi kəndlərin olması sözün qorunub saxlanmasının göstəricisidir. Qazax mənbələrində Qorqud Atanı təsvir edərkən çox vaxt əlində türklü qopuz olur.

Fərqli adlar altıda tanınan Türk xalqlarının maddi mədəniyyət nümunələri olan musiqi alətlərinin dekorativ tərtibatı zamanı onların bir çox hallarda ortaq xüsusiyyətlərə malik olması öz təsdiqini tapmışdır. Bölgələr üzrə fərqli nümunələr üzrə aparılmış təhlillər türkdilli xalqlara məxsus musiqi alətlərinin istər formaca, istərsə də dekorativ-tərtibat baxımından yaxın olması eləcə də onların yaxın tarixi inkişaf prosesi keçməsi ilə yanaşı izlənir.

İkinci fəslin son paraqrafı “Azərbaycan və digər Şərq ölkələrinin musiqi alətlərinin dekorativ tərtibatında bədii xüsusiyyətlər” mövzusuna həsr edilmişdir.

VII əsrin əvvəllərindən Türk-Oğuz boylarının indiki Türkiyə torpaqları da daxil olmaqla Orta Asiyadan regional ölkələrə köç etməsi, XI-XIII əsrlərədək Səlcukların Orta Şərqdə yüksəlməsi və Asyanın böyük bir hissəsinin Teymurun dövlət hakimiyyətinə keçməsi, sadəcə o zamana görə güclü dövlətlərin deyil, bütün türk xalqlarının ortaq bir mədəniyyət qazanmasına səbəb olmuşdur. Mədəniyyətin müxtəlif sahələrində olduğu kimi musiqi, çalğı alətlərinin bədii formalarında da izləmək mümkündür. Aparılan araşdırmalara əsaslanaraq qeyd edək ki, Şərq xalqlarının musiqi alətlərində oxşar xüsusiyyətlər qədər onları bir-birindən fərqləndirən dekorativlik də mövcuddur. Verilmiş nümunələr, xüsusilə də onların üzərində aparılan təhlillər qeyd olunanların təsdiqləyir.

Məlum olduğu kimi VII əsrin əvvəllərindən Türk-Oğuz boylarının indiki Türkiyə torpaqları da daxil olmaqla Orta Asyadan regional ölkələrə köç etməsi, XI-XIII əsrlərədək Səlcukların Orta Şərqdə yüksəlməsi və Asyanın böyük bir hissəsinin Teymurun dövlət hakimiyyətinə keçməsi, sadəcə o zamana görə güclü dövlətlərin deyil, bütün türk xalqlarının ortaq bir mədəniyyət qazanmasına səbəb olmuşdur. Bunu digər sahələrdə olduğu kimi musiqi, çalğı alətlərinin bədii tərtibatında, dekorativ formalarında da hiss edə bilərik. Bununla yanaşı türkçülüyün əsasını əks etdirən bir çox nümunəni, əski türk qaynaqları və bunlardan biri olan dastanlarda aydın şəkildə görməkdəyik. Məsələn, türk xalqlarının orta əsr musiqi alətləri

bir-birindən fərqlənsə də, digər xalqların musiqi ənənələrindən az da olsa təsirləndiyini söyləyə bilərik.

Fərqli dillərdə danışan, lakin Şərqin eyni coğrafi şərtlərində yaşayan xalqların qarşılıqlı əlaqəsinə baxdıqda onların mədəniyyət və musiqi alətləri baxımından yaxın olduqlarını söyləmək mümkündür. Buna misal olaraq, iranlıların “Dəsgah”, azərbaycanlıların “muğam” adını verdikləri, və yaxud daha parlaq nümunə olaraq iki fərqli dildə danışan taciklər və özbəklər tərəfindən milli mədəniyyət əsəri sayılan “şaşmakon” adlanan musiqi növlərini və burda istifadə edilən musiqi alətlərini göstərmək olar. Qeyd edək ki, bu iki xalqın musiqi alətləri günümüzdə də çox böyük bənzərlik göstərdiyi kimi, digər Şərq xalqlarının çalğı alətlərində də eyni yaxınlığı göstərir. Bu yaxınlığı həm də bu musiqi alətlərinin dekorativ tərtibatına da aid etmək olar. Məsələn, özbəklərə məxsus tanbur nümunəsindən birinin dekorativ həllinə diqqət yetirildiyində onun üzərində sədəflə işlənmiş bəzək detallarının həm də onun quruluşuna uyğun iki hissəli çanaq hissəsinin formasına uyğunlaşdırıldığını görürük. Tənburun çanaq hissəsinin yan qismlərində həndəsi elementlər bütün kənar hissələr boyu aləti haşiyələmişdir. Mərkəzdə isə ulduzabənzər element, aşağı çanağın üzərində günəşi əks etdirən simvolik təsvir elementi ilə əvəz olunur. Digər bir özbək tənburunun forması Azərbaycan sazlarını xatırladır. Bu xatırlatma sadəcə formaya görə deyil, eyni zamanda üzərində verilmiş üslublaşdırlmış nəbati elementlərin çanaq hissədəki təsviri ilə də öz izahını tapır.

*XX əsrin əvvəllərində Altayların Pazırık və Başadar vadilərində araşdırmalar aparan Sovet tədqiqatçıları S.İ.Rudenko və M.P.Qryaznov çox qədim kilim hissələri və türk musiqi aləti olan çəngi aşkarlamışdılar. Rudenko bu ərazidə yaşayan insanların tarixini e.ə. 1700-ci illərə aid olduğunu iddia etmişdir. Asya xalqlarından olan Hunlar bu aləti çox sevirdilər. Azərbaycan ərazisində yayılmış arpa bənzər qədim simli musiqi aləti “çəng" və ya "cəng" olarak adlandırılırdı. Azərbaycan arxeoloqlarının araşdırmaları nəticəsində cəngin bu ölkədəki qalıqlarının eradan əvvəlki dövrlərə aid olduğu*

*müəyyənləşdirilmişdir.*[3] Ölkəmizdəki qədim mədəniyyət mərkəzlərindən biri olan Bərdə şəhəri yaxınlığında Şatırlar kəndi ərazisində alimlər tərəfindən aparılan qazıntılarda üzərində çəng çalan qadın təsvirləri edilmiş keramik hissələri aşkarlanmışdır. Türklərə aid olan bir cəng formasını xatırlatdığından ona Aycəng adı verilmişdir ki, bu da klassik cəngdən əsaslı şəkildə seçilir.

Azərbaycan və Şərq xalqlarının musiqi alətlərinin bədii tərtibatında oxşar xüsusiyyətlər əsasən fərqli adlarla tanınan bir-birinə yaxın alətlərin forma quruluşu ilə əlaqədar olduğu kimi, onların bədii tərtibatında da istifadə olunan naxış kompozisiyalarının da şərq naxış element xüsusiyyətləri üzrə inkişaf etdiyini göstərir. Bu xüsusiyyət əsasən yaxın Şərq ölkələri arasında özünü daha aydın göstərir. Çin, Hindistan kimi ölkələrə məxsus musiqi alətlərinin bədii tərtibat xüsusiyyətləri isə əsasən onların ənənəvi naxış elementlərinin əsasında fərqlilik göstərir.

**Nəticədə dissertasiyanın əsas müddəaları yekunlaşdırılmışdır:**

- Azərbaycan və Şərq musiqi alətlərinin Azərbaycan dekorativ-tətbiqi sənətində yerini və rolunu müəyyən edən, onların bir yaradıcılıq nümunəsi olaraq meydana çıxmasını şərtləndirən tarixi-müqayisəli təhlil aparılmışdır;
- Müsiqi alətlərinin bədii mahiyyətini və məzmununu təhlil etmək imkanı verən ikonologi;
- Musiqi alətlərinin bədii tərtibat xüsusiyyətlərini, onların ornament kompozisiyalarını, eləcə də forma xüsusiyyətlərini müəyyən etməyə imkan verən formal stilistik;
- Azərbaycan və Şərq xalqlarına məxsus musiqi alətlərinin növlər üzrə tipoloji xüsusiyyətlərinə görə təhlil və sistemləşdirilməsinə imkan verən həmin nümunələrin tərtibat xüsusiyyətləri ilə yanaşı, arxa planda dayanan mədəni, sosial və tarixi əhəmiyyəti dərk etmək üçün təsvir olunan mövzunun konteksti müəyyənləşdirilmişdir (ikonoloji);
- Mövzu üzrə tədqiqata cəlb edilən nümunələrin hər biri

[3] [Elektron resurs] / URL https://az.wikipedia.org/wiki/Paz%C4% B1r%C4% B1 q_m%C9%99d%C9%99niyy%C9%99ti. - “Pazırık mədəniyyəti”.

təhlil edilmiş, bu istiqamətdə olan elmi məqalə və araşdırmalar ümumiləşdirilərək şərh edilmiş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

Tədqiqat əsasında aşağıdakı nəticələr əldə edilib:

1. Azərbaycan və Şərq musiqi alətlərinin forma quruluşları üzərində aparılan araşdırma onların hər zaman qədim ənənələr üzərində inkişaf etdirildiyini təsdiqləyir.

2. Fərqli materiallardan hazırlanan musiqi alətləri ağac oyma, metal və saxsı sənəti kimi Azərbaycan dekorativ-tətbiqi sənət sahələrinin inkişafında da müəyyən qədər rol oynamış, bu istiqamətdə fərdi rəssam səriştəsini dəyərləndirməyə imkan yaratmışdır.

3. Dekorativ-tətbiqi sənətin müxtəlif sahələrində istifadə olunan milli musiqi alətlərinin istifadəsinə nəzər saldıqda onların özünün də bu sahədə ayrıca olaraq dekorativ formalarının araşdırılmasının vacibliyi danılmazdır.

4. Əsrlərlə öz formasını, quruluşunu, funksional dəyərlərini dəyişən musiqi alətlərimizin üzərindəki bəzək elementləri digər naxışlarla yanaşı həndəsi formalı bəzəklərin də milli köklərə bağlılığını əks etdirməkdədir.

5. Fərqli adlar altıda tanınan Türk xalqlarının maddi mədəniyyət nümunələri olan musiqi alətlərinin dekorativ tərtibatı zamanı onların bir çox hallarda ortaq xüsusiyyətlərə malik olması öz təsdiqini tapmışdır.

6. Bölgələr üzrə fərqli nümunələr üzrə aparılmış təhlillər türkdilli xalqlara məxsus musiqi alətlərinin istər formaca, istərsə də dekorativ-tərtibat baxımından yaxın olması eləcə də onların yaxın tarixi inkişaf prosesi keçməsi ilə yanaşı izlənir.

7. Azərbaycan və Şərq xalqlarının musiqi alətlərinin bədii tərtibatında oxşar xüsusiyyətlər əsasən fərqli adlarla tanınan bir-birinə yaxın alətlərin forma quruluşu ilə əlaqədar olduğu kimi, onların bədii tərtibatında da istifadə olunan naxış kompozisiyalarının da şərq naxış element xüsusiyyətləri üzrə inkişaf etdiyini göstərir. Bu xüsusiyyət əsasən yaxın Şərq ölkələri arasında özünü daha aydın göstərir. Çin, Hindistan kimi ölkələrə məxsus musiqi alətlərinin bədii tərtibat xüsusiyyətləri isə əsasən

onların ənənəvi naxış elementlərinin əsasında fərqlilik göstərir.

Azərbaycan və Şərq musiqi alətlərinin dekorativ tərtibatının müqayisəli təhlili üzrə araşdırmanın aparılması bütünlükdə Şərq dünyasının musiqi alətlərinin qədim dövrlərdən başlayaraq günümüzədək araşdırılması, bu istiqamətdə milli-ənənəvi xüsusiyyətlərdən istifadə ilə yanaşı, Azərbaycan dekorativ sənətində mövcud bədii prinsiplərdən istifadənin, üslubların məharətlə sintezinin dayandığını qeyd edə bilərik.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. "Художественное оформление Азербайджанских струнных инструментов". Paradigmata poznani. Prague, 2019. s. 136-139.
2. "Azərbaycan musiqi alətlərinin dekorativ həllində həndəsi elementlərin istifadəsi". Elmi əsərlər. ADMİU. Bakı, 2021. s. 124-128.
3. **"**Şərq simli alətlərinin bədii tərtibat xüsusiyyətləri**".** Mədəniyyət dünyası. ADMİU. Bakı, 2022. s. 152-156.
4. "Müasir dövrdə yaranan Azərbaycan milli musiqi alətlərinin dekorativ formaları". Elmi əsərlər. ADMİU. Bakı, 2022. s. 155-160.
5. "Traditional character in the form structure of the ancient and modern Azerbaijani musical instruments". Art Jurisprudence Medicalsciences Technical science Economic sciences Pedagogical sciences Philological sciences. Warszawa, Polska, 2022. s. 10-12.
6. **"**Şərq zərb musiqi alətlərinin bədii-dekorativ xüsusiyyətləri**".** Mədəniyyət dünyası. ADMİU. Bakı, 2022. s. 149-154.
7. "Muğam üçlüyünə daxil Azərbaycan musiqi alətlərin bədii-dekorativ xüsusiyyətləri". Axtarışlar. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2022. s.156-159.

8. “Azərbaycan miniatürlərində milli musiqi alətlərinin bədii ifadəsi”. “Nizami dünyası və təsviri sənət”. Respublika elmi-nəzəri konfrans. ADMİU. Bakı, 20 dekabr 2021. s. 78-82.
9. “Şərq xalqları musiqi alətlərinin ortaq xüsusiyyətləri”. Uluslararası İletişim ve Sanat Sempozyumu (İLSANS) International Communication and Art Symposium (INCAS). Türkiye. 25 avqust 2022. s. 390-400.
10. “Azərbaycan nəfəsli musiqi alətlərinin bədii tərtibat xüsusiyyətləri”. Mədəniyyət: Problemlər və perspektivlər. “Yaşıl dünya naminə həmrəylik ili” nə həsr olunmuş doktorant və gənc tədqiqatçıların XVI respublika elmi konfransı. ADMİU. Bakı, 19 aprel 2024, s. 39-41.



Dissertasiyanın müdafiəsi 14 fevral 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Rəssamlıq Akademiyası, AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 08 yanvar 2025-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 5.12.2024

Kağızın formatı: A5

Həcm: 36.333

Tiraj: 100